# XARİCİ ÖLKƏLƏRİN HƏYATI CƏMİL MÜFİDZADƏNİN YARADICILIĞINDA

**Musa Əmiraslanov**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı
**E-mail:** musa.amiraslanov59@gmail.com

Müstəqil yaradıcılığa ötən əsrin altmışıncı illərində başlayan Xalq rəssamı Cəmil Müfidzadənin (1934-2019) qrafik irsində doğma Azərbaycanla yanaşı, bir çox xarici ölkələrə həsr olunmuş əsərlər də yer alır. Görkəmli fırça ustasının həmin ölkələrə yaradıcılıq ezamiyyətlərinin nəticəsi olan qrafik lövhələrdə yerli xalqın tarixi-memarlıq abidələri, maddi-mədəniyyət nümunələri, etnoqrafiyası və ürəkaçan mənzərələri əks olunduğundan, belə əsərlərin timsalında tamaşaçı həmin diyarlar barəsində zəngin təəssürat ala bilir. Odur ki, sənətsevərlər onun Azərbaycan mövzusunda çəkilmiş “Bakı albomu”, “İçərişəhər”, “Abşeron nefti” və “Xınalıq” ilə yanaşı, xarici ölkələrə həsr olunmuş “Şimal”, “Monqolustan torpağında” və “Misir təəssüratları” silsilələrini də yüksək dəyərləndirirlər.



Rəssamın 1977-ci ildə ictimaiyyətə təqdim olunan “Şimal” silsiləsi Rusiyanın şimal vilayətlərində yaşayan insanların həyatına həsr edilmişdir. 1975 və 1976-cı illərdə keçmiş SSRİ-nin şimal zonasına səfəri zamanı topladığı materiallar ona hamı üçün maraqlı görünə biləcək qrafik silsilə yaratmaq imkanı vermişdir. Əvvəlcə Yakutiyada, sonra isə Ağ dənizdə olan rəssam, son nəticədə gəzib gördüyü yerlərin yaddaqalan bədii obrazını yaratmağı bacarmışdır. Qənaətimizcə, sonralar beynəlxalq aləmdə də kifayət qədər müsbət qarşılanacaq həmin əsərlərin yaranmasının kökündə həm də yaradıcılığı daha çox Azərbaycanla bağlı fırça ustasının ekzotik məkanlarla qarşılaşması durur. Rəssam özü maral bəsləyənlərin, çörəyi ovdan çıxanların və balıqçıların işlərini izləmək, eləcə də bu ətrafda baş verənləri müşahidə etməyin onun üçün çox maraqlı olduğunu həmişə etiraf edərdi.

“Şimal” silsiləsinin əhatəli bədii şərhinə keçməzdən əvvəl həmin əsərlərin rəssamın Azərbaycan neftinə və memarlığına həsr etdiyi çoxsaylı qrafik lövhələrdən daha real bədii həllə malikliyini vurğulamaq lazımdır. Yəqin ki, bu ilk növbədə Cəmil Müfidzadənin tamaşaçıda az tanış olduğu şimal bölgəsi barəsində daha dəqiq təsəvvür yaratmaq istəyi ilə bağlıdır. Bununla belə demək lazımdır ki, müəllif bu qrafik işlərində nə qədər gerçəkçiliyə çalışsa da, sona qədər öz yaradıcılıq kredosunun əksinə gedə bilməyib və bir çox hallarda Şimal təbiətini və insanlarının fəaliyyətini ümumiləşdirən yaddaqalan rəmzi-poetik əsərlər yaratmağa nail olub. Başqa sözlə, çoxsaylı əsərlərdə soyuq diyarın ənənəviləşən və “tanınma nişanı”na çevrilən taxta evləri və qayıqları, balıqçı torları və inanc yerləri çoxqatlı məna-məzmun yükü əlavə edilməklə görüntüyə gətirilmişdir.

Silsilədə rəssamın balıqçı torlarına xüsusi münasibəti, onlara cəlbedici görkəm vermək istəyi yaddaqalandır. Balıqçı torlarının görüntüyə gətirildiyi motivlərdə təbiət motivlərini tamamlaması və ecazkar səhnələri müvəqqəti gizlədən “teatr pərdəsi” kimi təqdimatı duyulur. “Qəsəbədə” (1976), “Müqəddəs gölün önündə” (1976), “Balıqçı” (1976), “Şimal mənzərəsi” (1976), “Balıqçı evi” (1977), “Əlverişsiz hava” (1977), “Şimalda qəsəbə” (1979) və s. lövhələri bunun əyani görüntüsüdür.

Cəmil Müfidzadə “Şimal” mövzusunu bu diyara həsr olunmuş ilk sərgisindən sonra da davam etdirmiş, bir-birindən maraqlı lövhələr yaratmışdır. Rəssam “Balıqçı adası” (1979), “Axşam ovundar sonra” (1979), “Tutqun gün” (1979), “Sakitlik” (1979) və s. əsərləri həmin qəbildəndir. Əslində balıqçı torunu kompozisiyanın dominantına çevirən rəssam, bədii vasitə ilə təsvir olunanların balıqçı əməyi ilə bağlılığını vurğulamaq istəmişdir. Onun “Qütb stansiyası” (1979), “Sakitlik” (1979), “Yakutiyanın təzadları” (1979), “Erkən qar” (1979) və s. əsərlərində isə bir qədər fərqli - Şimalın səciyyəvi təbiətini əyaniləşdirən motivlərlə qarşılaşırıq.



Cəmil Müfidzadənin bu əsərlərinin yığcam detalları ciddi biçimli olsalar da, səhra həyatının görünən dəyişkən ritmləri müəllif təfsiri sayəsində onlarda lirik ovqat, bəzilərində isə hətta romantik başlanğıc yaranmasını şərtləndirmişdir. Görünənlər çox ustalıqla ümumiləşdirildiyindən monumentallıq kəsb edirlər.

Məhz görkəmli qrafikin məkana yaradıcı yanaşması sayəsində çoxlarına adi görünən səhra obrazlı-bədii görkəm almaqla, duyğulandırıcı təxəyyülün nəticəsi olduğuna tamaşaçısını inandırdığından uzun müddət unudulmur. Qobi ünvanlı dəvəli kompozisiyalarda nəhayətsiz görünən səhra fonunda dəvələrin siluetləri ecazkar-ifadəli göründüyündən, bütünlükdə onların pauza-fasilə və ritm əsasında qurulan ritmləri əsərlərə romantik-dramatik tutum verilməsini şərtləndirir. “Səhər” (1982), “Qobi səhrası” (1983), “Görüş” (1984), “Hava pisləşir” (1983), “Dostlar” (1983) və digər əsərlərində vurğuladığımız bədii-estetik məziyyətləri müşahidə etmək mümkündür.

Cəmil Müfidzadənin Ağ dənizə səfərinin real cizgilərini yaşadan lövhələrdə də Rusiyanın bənzərsiz təbiətinə cənublu rəssamın özünəməxsus münasibətini görmək mümkündür. Bu mənada “Ağ dəniz önündə” (1977), “Köhnə Kandalakşa” (1977), “Qütb stansiyası” (1977), “Kandalakşa motivi” (1977), “Şimali Dvina üzərində” (1977), “Şimalda” (1977), “Uzaq Şimalda” (1977), “Kovda. Sakitlik” (1977), “Tiksi limanı” (1976) və “Kandalakşada” (1977) kimi müxtəlif texnikalarda yerinə yetirilmiş qrafik lövhələri qeyd olunmalıdır. Bu əsərlərdə dərin müşahidələri ümumiləşdirilmiş bədii obraza çevirmək istəyinin uğurlu nəticələri var...

Cəmil Müfidzadənin səksəninci illərdə Monqolustana baş tutan yaradıcılıq səfərindən sonra yeni bir silsilə meydana gəldi. “Monqolustan torpağında” adlanan silsilənin yaranmasına onun SSRİ Rəssamlar İttifaqı nümayəndə heyətinin tərkibində bu ölkə ilə yaxından tanışlığı səbəb olmuşdur. İlk baxışdan çoxlarına o qədər də maraqlı görünməyən Monqolustanda sovet rəngkarları daha çox ölkənin paytaxtı Ulan-Batorda olsalar da, cəmisi bir dəfə Qobi səhrasına səfər onlarda zəngin təəssürat oyadıb.

Ərazisi yüz kilometrlərlə ölçülən, ancaq tikanlardan, dəvələrdən və hərdən bir rast gəlinən alaçıqlardan ibarət bu qumluq, sözün əsl mənasında belə bir məkanla ilk dəfə rastlaşan yaradıcı adamlarda, o cümlədən də Cəmil Müfidzadədə güclü təsir yaratmışdır. Elə bu səbəbdən səfərdən qayıtdıqdan sonra davamlı olaraq özünün Monqolustan təəssüratına bədii tutum verməkdə davam etmişdir.

Rəssam dost ölkəyə iki həftəlik səfərinin nəticəsi olan lövhələrdə reallıqda bir qədər yeknəsəq görünən Qobi səhrasını cansıxıcılıqdan çıxara, müxtəlif süjetlərdə bu dəvəli-tikanlı məkana poetik-fəlsəfi məna verə bilib. Odur ki, müəllifin Monqolustan ünvanlı əsərləri necə heyrətdoğurucu və düşündürücüdürsə, özünəməxsus estetik tutumu ilə bir o qədər də duyğulandırıcıdır. Qənaətimizcə, bunu şərtləndirən başlıca səbəb onun gördüyü və göz yaddaşına həkk etdiyi motivlərə özünəməxsus tərzdə müdaxiləsi, Qobi həqiqətlərini reallıqla irreallığın qovşağında təqdim etməklə, tamaşaçı gözü qarşısında məxsusi auralı məkanı canlandıra bilməsidir.

Rəssamın bütün yaradıcılığı boyu müşahidə etdiyimiz qrafikanın bədii-texniki imkanlarından istifadə istedadının nümayişi “Monqolustan torpağında” silsiləsində də izlənilir. Yüksək rəsmetmə mədəniyyəti silsiləyə daxil olan bütün əsərlərdəki detalların konkret təsvirində və inandırıcılığında özünü qabarıq göstərib. Tətbiq olunan qarışıq texnika rəssama geniş ümumiləşdirmələrlə yanaşı, kompozisiyaları təşkil edən təsvir elementlərini həm konkret, həm də irreal görüntüyə çevirməyə imkan vermişdir.

Monqolustanla bağlı əsərlərində rəssamın gerçəkliyi gördüyü kimi yox, qavradığı kimi təsvir etməsi, görüntüdə təqdim olunanlardan aldığı təəssüratı yeniləşmiş bədii biçimdə canlandırmasının onun estetikasının cəlbediciliyə və duyğulandırıcılığa yönəltməsi də hiss olunandır. Bütün bunlar romantikaya və psixoloji tutuma bələnmiş Qobi səhrasının yaddaqalan bədii obrazının yaradılmasına səbəbdir. Beləliklə bu halda görünən reallıq və arzular aləmi odur ki, “Qurumuş çeşmə başında” (1980), “Əsrlərin görüşü” (1984), “Axırıncı tikan” (1983), “Hər şeylə maraqlanan” (1984), “Yad” (1983) və digər əsərləri reallıq və arzular aləmi kimi qəbul olunur.

Yuxarıda da qeyd etdiyimiz kimi, C.Müfidzadənin Monqolustanın paytaxtı Ulan-Bator və onun adamları barəsində təəssüratları da zəngindir. Silsiləyə daxil olan “Ulan-Batorda yuxu” (1985), “Suxe-Batorun portreti”, “Kişi portreti”, “Aratın portreti”, “Məbəd” və s. əsərləri də deyilənləri təsdiqləyir. Məzmun tutumuna görə fərqli olan qrafik lövhələrdə rəssamın monqol torpağının özünəməxsus gözəlliyinə vurğunluğu, burada yaşayan insanların əməyinə ehtiramı duyulduğundan silsiləni tamamlayan sənət nümunələri kimi diqqət çəkir. Bütünlükdə silsilənin yüksək bədii-texniki məziyyətlər daşıması ilk növbədə rəssamın yaratdıqlarına duyulası dərəcədə ciddi və inadcıl münasibətinin nəticəsidir...

2004-cü ildə Misirdə yaradıcılıq ezamiyyətində olan rəssam iki il sonra Bakıda “Misir təəssüratları” adlı hesabat sərgisi ilə respublikanın mədəni həyatında yaddaqalan iz qoymağı bacardı. Hamı kimi ilk dəfə ayaq basdığı məkanı bura gəlişinə qədər “Ehramlar diyarı” kimi tanıyan Cəmil müəllim, təkcə həmin məşhur tikililərə heyranlı-

ğını nümayiş etdirməklə kifayətlənməmiş, müşahidələri nəticəsində qədim diyarın özünəməxsus mənzərələri, insanların həyatı və adət-ənənələri barəsində zəngin təsvir materialı toplamışdır. Yeri gəlmişkən qeyd edək ki, bu silsilə üzərində çalışarkən o, qarşısında duran bir çox yaradıcı vəzifələri həll etməli olub. Ən önəmlisi, Monqolustana həsr olunmuş silsilədəki kimi, yerli təbiətin yeknəsəqliyini aradan qaldırmaq və bu bir-birinə bənzəyən motivlərdə bədii məqamlar axtarmağıdır. Odur ki, rəssam yerli qumluqların üzərində dominant rolunu oynayan ehramları Misir gerçəkliyi – məkanın uzaq-yaxın tarixi ilə əlaqəli verməyə çalışmışdır. Kompoziyalarda davamlı olaraq yer alan və çox vaxt da onların təqdimatında fon rolunu oynayan dəvələrin və ehramların müxtəlif mövzularla əlaqələndirilməsi yüksək sənətkarlıqla icra olunduğundan, silsilənin hər bir lövhəsi daha cəlbedici görünməklə, zəngin estetik qaynaq mənbəyi kimi çıxış edir. Müəllifin qarışıq texnikada işlədiyi "Ziyarətçilər" (2004), "Misirin tarixi" (2005), "Gəzinti" (2005), "Sinayda günorta" (2005),"Qısa istirahət" (2005), "Gənc bədəvilər" (2005), "Doğma yerlər" (2005), "İki dost" (2004), "Ehramlar" (2005), "Karvan" (2004) və s. əsərlərində onun dərin müşahidə qabiliyyətinə malik olduğunu, gördüklərinə obrazlı görkəm vermək bacarığını görürük.

Ərəblərin həyatında dəvələrin necə önəmli rol oynadığını silsiləni təşkil edən bir neçə əsərdə yaxşı hiss etmək olur. Qobi səhrasındakı dəvələrdən fərqli olaraq Misirdəki dəvələrin bilavasitə xarici turistlərə xidmətin tərkib hissəsi kimi qəbul edilməsindəndir ki, təqdim olunan bu heyvanlar bəzədilmiş və cəlbedici görkəmdədirlər. İfadəli siluetə malik ərəb dəvələrinin "İntizarda" (2004), "Sinayda" (2005), "Qonaqlar" (2004), "Ailə" (2005) və "Yolçular" (2005) lövhələrində ifadə edilən ən dominant rolu kifayət qədər yaddaqalandır....

Bütünlükdə, Cəmil Müfidzadənin üç xarici ölkəyə (Rusiya, Monqolustan, Misir) həsr olunmuş silsilə, həm də Yaponiya, Polşa, Almaniya, İran və Türkiyə ilə bağlı ayrı-ayrı qrafik lövhələrində onun üçün yeni məkanlara sonsuz marağı və rəğbəti duyulmaqdadır. Bu əsərlərin müxtəlif muzey və şəxsi kolleksiyaları bəzəməsi isə onların yüksək estetik dəyər daşıyıcılığı ilə bağlıdır.

**Ədəbiyyat:**

1. Azərbaycan incəsənəti (K.Kərimov, R.Əfəndiyev, N.Rzayev, N.Həbibov). Bakı,1992. 344 səh.
2. Əliyev Ziyadxan. Cəmil Müfidzadə. Cizgilərə hopan ömür. Bakı, 2010. 212 səh.
3. Петров-Стромский В. Связь времен. Москва,1988. 120 стр.

## Резюме

Муса Амирасланов

ЖИЗНЬ ЗАРУБЕЖНЫХ СТРАН В ТВОРЧЕСТВЕ ДЖАМИЛЯ МУФИДЗАДЕ

Графическое наследие народного художника Джамиля Муфидзаде (1934-2019), начавшее еще в 1960-х годах, включает в себя работы, посвященные его родному Азербайджану и многим зарубежным странам. Графические работы, являющиеся результатом творческих поездок известного художника в эти страны, отражают исторические и архитектурные памятники, образцов материальной культуры, этнографию и неповторимые пейзажей местности. Поэтому любители искусства очень высоко ценят его «Бакинский альбом», «Ичери Шехер», «Абшеронское масло» и «Хыналыг» на тему Азербайджана, а также сериалы «На севере», «На земле Монголии» и «Египтские впечатления», посвященные зарубежным странам.

Представленная публике в 1977 году серия художника «Север» посвящена жизни людей, проживающих в северных регионах России. Материалы, которые он собрал во время своих поездок в северную зону бывшего СССР в 1975 и 1976 годах, позволили ему создать серию графических произведений, которые вызвали большой интерес у знатоков искусства.

Новая серия была создана после творческой поездки Джамиля Муфидзаде в Монголию в 1980-х годах. Серия получившей название «На земле Монголии», было создано близким знакомством с этой страной в составе делегации Союза художников СССР. В Монголии, которая на первый взгляд кажется многим не очень интересной, советские художники были в основном в Улан-Баторе - столице страны, но только одно посещение пустыни Гоби произвело на них огромное впечатление и дало художнику создать серию графических работ.

Художник, отправившийся в творческую поездку в Египет в 2004 году, сумел два года спустя предоставить зрителям отчетную выставку под названием «Египетские впечатлении». Представляя себе эту местность как «Страну пирамид», прежде чем приехать сюда, Джамиль Муфидзаде в итоге не только продемонстрировал свое восхищение этими знаменитыми памятниками, но и собрал огромный изобразительный материал. В итоге в новой серии увековечил не только уникальные ландшафты древней земли, но жизни и традиции египитян...

**Ключевые слова:** графика, север, рыбак, сеть, холод, верблюд, история, пустыня, пирамида.

## Summary

Musa Amiraslanov

LIFE OF FOREIGN COUNTRIES IN THE WORKS OF JAMIL MUFIDZADE

People's Artist Jamil Mufidzadeh's (1934-2019) graphic heritage, which began his independent career in the 1960s, includes works dedicated to his native Azerbaijan and many foreign countries. The graphic plates, which are the result of the famous artist's creative trips to these countries, reflect the historical and architectural monuments, material and cultural samples, ethnography and heartwarming landscapes of the local people. Therefore, art lovers appreciate his "Baku album", "Icheri Sheher", "Absheron oil" and "Khinalig" on the theme of Azerbaijan, as well as the series "North", "In the land of Mongolia" and "Impressions of Egypt" dedicated to foreign countries.

Introduced to the public in 1977, the artist's series "North" is dedicated to the lives of people living in the northern regions of Russia. The materials he collected during his visits to the northern zone of the former USSR in 1975 and 1976 allowed him to create a series of graphics that might seem interesting to everyone.

A new series was created after Jamil Mufidzadeh's creative visit to Mongolia in the 1980s. The creation of this series, called "In the Land of Mongolia", was caused by his close acquaintance with this country as a member of the delegation of the Union of Artists of the USSR. In Mongolia, which at first glance does not seem very interesting to many, Soviet artists were mostly in Ulaanbaatar, the capital of the country, but only one visit to the Gobi Desert made a rich impression on them.

The artist, who went on a creative trip to Egypt in 2004, managed to make a memorable mark in the cultural life of the republic two years later with a report exhibition entitled "Egyptian Impressions" in Baku. Knowing this place as the "Land of the Pyramids" before coming here, Jamil Mufidzadeh not only showed his admiration for these famous buildings, but also collected and illustrated the unique landscapes of the ancient land, people's lives and traditions as a result of his observations.

**Keywords**: graphics, north, fisherman, net, cold, camel, history, desert, pyramid.